# "Qələmi silaha dəyişən müəllim"





Ağstafada Vətən müharibəsinin ilk günlərindən könüllü cəbhəyə yollanan şəhid məktəb direktoru Elvin Elsevər oğlu İmaməliyevin ömür yolundan bəhs edən "Qələmi silaha dəyişən müəllim" adlı kitabın təqdimat mərasimi keçirilib.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdən əvvəl Elvin İmaməliyevin vaxtilə direktoru olduğu Ağstafa şəhər 1 saylı tam orta məktəbdə onun xatirəsinə inşa edilmiş abidə-kompleksi ziyarət olunub, önünə əklil və gül dəstələri düzülüb.

Ağstafalı şəhidlərin ailə üzvlərinin, rayon rəhbərliyinin, kitabın müəllifi Mətanət İmamquluyevanın, eləcə qazilərin və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasimdə Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kitabın müəllifi Mətanət İmamquliyeva çıxış edərək diqqətə çatdırıb ki, o, bu kitabda 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmiş Elvin müəllimin simasında Babək, Koroğlu hünərli qəhrəman oğullarımızın ümumiləşdirilmiş obrazını təqdim edib. Bu kitab şəhid qəhrəmanımızın xatirəsini əbədiləşdirən söz abidəsidir.

Sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, şəhidin atası Elsevər İmaməliyev və başqaları çıxış edərək Elvin İmaməliyevin keçdiyi şərəfli ömür və döyüş yolundan, eləcə də ölkəmizdə şəhid ailələrinə, müharibə iştirakçılarına göstərilən yüksək dövlət qayğısından söz açıblar.

Mərasim Elvin İmaməliyevə həsr olunmuş filmin nümayişi ilə başa çatıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 11 may.- S.8.